*Azərbaycan Respublikası vergilər nazirinin*
*“19”sentyabr”2014-cü il tarixli*
*1417040101282800 nömrəli əmrinə*
*Əlavə*

# Azərbaycan Respublikası Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr

## I. Ümumi müddəalar

“Azərbaycan Respublikası Vergilər Nazirliyində keçirilən təlimlərin qiymətləndirilməsinə dair Metodiki Tövsiyələr” (bundan sonra – Tövsiyələr) Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli, 90 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnaməsi”nə, Azərbaycan Respublikası Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100758700 nömrəli əmri ilə təsdiq olunmuş “Azərbaycan Respublikası Vergilər Nazirliyinin tədris konsepsiyası”na uyğun olaraq və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmışdır.

Bu Tövsiyələr Vergilər Nazirliyində həyata keçirilən təlimlərin (ilkin hazırlıq və ixtisasartırma kursları, o cümlədən qısamüddətli təlimlər (treninqlər)) vergi orqanlarının tələbatlarına uyğunluğunun, keyfiyyətinin və nəticəliliyinin qiymətləndirilməsi üçün vergi orqanlarının vəzifəli şəxsləri arasında sorğuların aparılması, əldə edilən nəticələrin ümumiləşdirilməsi və istifadə edilməsi üsullarının müəyyən edilməsi məqsədilə hazırlanmışdır.

## II. Təlimlərin qiymətləndirilməsinin məqsəd və vəzifələri

Təlimlərin qiymətləndirilməsinin məqsədi ilkin hazırlıq və ixtisasartırma kurslarının, o cümlədən qısamüddətli təlimlərin (treninqlərin) planlaşdırılması və həyata keçirilməsi proseslərinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Təlimlərin qiymətləndirilməsi aşağıdakıları əhatə edir:

- təlimin vergi orqanlarının və əməkdaşların praktiki tələbatlarına uyğunluğunun qiymətləndirilməsi;
- təlimin təşkilinin qiymətləndirilməsi;
- təlimçilərin təlim qabiliyyətlərinin qiymətləndirilməsi;
- təlimin dinləyicinin işlədiyi struktur vahidinin (bölmənin, şöbənin və ya idarənin) fəaliyyətinə təsirinin qiymətləndirilməsi;
- təlim prosesləri ilə bağlı təkmilləşdirici təkliflərin əldə edilməsi;
- qiymətləndirmələr və təkliflər əsasında təlimlərin təkmilləşdirilmə istiqamətlərinin müəyyən edilməsi.

## III. Qiymətləndirmənin aparılması ardıcıllığı

Təlimlərin qiymətləndirilməsinin iki mərhələdə aparılması tövsiyə olunur. Birinci mərhələdə kursun bitməsindən sonrakı həftə ərzində, iş yerində dinləyicilərin təlimdən məmnunluq səviyyəsinin qiymətləndirilməsi üçün sorğunun aparılması nəzərdə tutulur. Bu mərhələdə dinləyicilərin təlimin təşkili, təlim materialları, biliklərin qiymətləndirilməsi və təlimçilərin təlim qabiliyyətləri barədə rəyləri və təklifləri öyrənilir.

İkinci mərhələnin təlimdən 6 ay sonra aparılması tövsiyə olunur. Bu mərhələdə təlimin nəticələrinin ümumi fəaliyyətə təsirinin qiymətləndirilməsi üçün təlim prosesində verilən biliklərin dinləyicilərin və struktur vahidinin fəaliyyət nəticələrinə təsirinin qiymətləndirilməsi, eləcə də təlimlərin təkmilləşdirilməsinə dair təkliflərin alınması məqsədilə həm dinləyicilər, həm də onların birbaşa rəisləri (şöbə və bölmə rəisləri) arasında sorğuların aparılması nəzərdə tutulur.

Təlimdə iştirak edən bütün dinləyicilər və onların birbaşa rəisləri (şöbə və ya bölmə rəisləri) sorğuların cavablandırılmasında iştirak etməlidirlər. Vergi orqanının əməkdaşları sorğuların cavablandırılmasına obyektiv və ciddi yanaşmalı, təlimin təkmilləşdirilməsi üçün təkliflərin verilməsində fəal olmalı, anketlərin hər hansı bir bəndi üzrə "3" və aşağı bal verdikdə belə halın səbəblərini göstərməlidirlər.

## IV. Təlimin qiymətləndirilməsi üçün istifadə olunacaq sorğuların məzmunu

### 4.1. Dinləyicilərin təlimdən məmnunluğunun qiymətləndirilməsi

### 4.1.1. Təlimin təşkilinin qiymətləndirilməsi üzrə Anket

| Göstəricilər | Ümumi göstəricidə əhəmiyyətlilik dərəcəsi | Qiymətləndirmə |
|---|---|---|
| **1. Təlim prosesi** | 0.3 | x |
| 1.1. Təlim başlamazdan əvvəl təlimin məqsədləri barədə məlumatlılıq səviyəsi | 0.1 | |
| 1.2. Təlim prosesində mövzuların əhatə olunma səviyyəsi | 0.2 | |
| 1.3. Təlim müddətində tədris-mövzu planının əhatə olunma səviyyəsi | 0.2 | |
| 1.4. Sizin əvvəlki biliyinizin təlim proqramının mənimsənilməsi üçün kifayətliliyi | 0.1 | |
| 1.5. Təlim zamanı dinləyicilərin fəal iştirakının təmin olunma səviyyəsi | 0.1 | |
| 1.6. İstifadə olunan təlim metodlarının öyrənmə üçün faydalılığı | 0.2 | |
| 1.7. Distant təhsil zamanı öyrənmə üçün iş yerində yaradılan şəraitin səviyyəsi* | 0.1 | |
| **2. Təlimin nəticələri** | **0,2** | X |
| 2.1. Təlimin məqsədlərinə nail olunma səviyyəsi | 0.2 | |
| 2.2. Ayrı-ayrı mövzuların tədrisində məqsədin və müzakirə olunan sualların peşə fəaliyyətinizlə əlaqəsi | 0.2 | |
| 2.3.Təlim zamanı verilən biliklərin yeniliyi | 0.2 | |
| 2.4.Təlimin əvvəlki biliklərinizin genişləndirilməsinə təsiri | 0.2 | |
| 2.5.Verilən biliklərin əhatəliliyi | 0.2 | |
| **3. Təlim materialları** | **0.2** | **x** |
| 3.1. Anlaşılanlıq səviyyəsi | 0.25 | |
| 3.2. Öyrənmə üçün uyğunluğu | 0.25 | |
| 3.3. Təyinatına uyğunluğu | 0.25 | |
| 3.4. Təlim prosesində müzakirə edilən məsələlərlə uyğunluğu | 0.25 | |

| | | |
|---|---|---|
| **4. Təşkilati məsələlər** | **0.1** | x |
| 4.1.Təhsilalma formasının qənaətbəxşliyi | 0.3 | |
| 4.2. Gündəlik təlim rejiminin qənaətbəxşliyi (dərs cədvəlinin tərtibi, saatlarının miqdarı və s.) | 0.3 | |
| 4.3. Təlim yerinin təlimə uyğunluğu | 0.2 | |
| 4.4.Təlimlə bağlı digər təşkilati işlərin qənaətbəxşliyi (təlim materiallarından, elektron resurslardan, kitabxanadan, təlimçilərin məsləhətlərindən istifadə imkanları) | 0.2 | |
| **5. Biliklərin qiymətləndirilməsi** | **0.2** | x |
| 5.1.Testlərin təlimdə verilən biliklərə uyğunluğu | 0.3 | |
| 5.2. Verilən biliklərin testlərlə əhatə olunması | 0.3 | |
| 5.3. Testlərin keyfiyyəti | 0.4 | |
| **Təlim prosesinin və qiymətləndirmə anketinin təkmilləşdirilməsinə dair təkliflər** | | |
| **Qeyd: "3" və daha aşağı bal verildikdə anketin qeyd hissəsində səbəblər göstərilməlidir.** | | |

**Bu sətir yalnız distant təhsilalma forması ilə təşkil edilmiş təlimlərin iştirakçıları tərəfindən doldurulur.*

## 4.1.2. Təlimçilərin təlim qabiliyyətlərinin qiymətləndirilməsi

| Təlimçinin adı soyadı | Meyarlar | | | | | | | YEKUN |
|---|---|---|---|---|---|---|---|---|
| | Auditoriyanı idarə etmək qabiliyyəti | Mövzuları izah etmə qabiliyyəti | Yeni bilikləri təqdim etməsi | Təqdim etdiyi təlim materiallarının öyrənmə üçün yararlılığı | Təlim alətlərindən (slayd, lövhə, flipçart və s.) istifadə etmə qabiliyyəti | Dinləyicilərin fəal iştirakını təmin etmə qabiliyyəti | Dinləyicilərə biliklərini nümayiş etdirmək imkanının verilməsi | |
| *Meyarların yekun qiymətdə əhəmiyyətliliyi əmsalı* | 0.15 | 0.15 | 0.15 | 0.15 | 0.1 | 0.15 | 0.15 | 1 |
| | | | | | | | | |
| **Təlimçinin S.A.A.** | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

## 4.2. Təlimin nəticələrinin praktiki fəaliyyətə təsirinin qiymətləndirilməsi anketləri

### 4.2.1. Təlim kursundan 6 ay sonra dinləyicilər arasında aparılan sorğu anketi

| Göstəricilər | | Ümumi göstəricidə əhəmiyyətlilik dərəcəsi | Qiymətlən-dirmə |
|---|---|---|---|
| **1. Peşə fəaliyyəti ilə təlim arasında əlaqə** | | | |
| 1.1. | Təlimdə əldə edilən biliklərin sizin peşəkarlıq səviyyənizə təsiri | 0.3 | |
| 1.2. | Təlimin sizin gündəlik işlərinizin nəticələrinə təsiri | 0.3 | |
| 1.3. | Təlimdə əldə edilmiş biliklərin iş proseslərində tətbiqi imkanlarının mövcudluğu | 0.2 | |
| 1.4. | Təlimdə əldə edilmiş biliklərin iş proseslərində tətbiqi səviyyəsi | 0.2 | |
| **Təlimin və qiymətləndirmə anketinin təkmilləşdirilməsinə dair təkliflər** | | | |
| **Qeyd: “3” və daha aşağı ballar verildikdə səbəblər göstərilməlidir.** | | | |

### 4.2.2. Təlimdən 6 ay sonra dinləyicilərin birbaşa rəisləri (şöbə və ya bölmə rəisləri) arasında aparılan sorğu anketi

| Göstəricilər | | Ümumi göstəricidə əhəmiyyətli-lik dərəcəsi | Qiymətlən-dirmə |
|---|---|---|---|
| **1. Peşə fəaliyyəti ilə təlim arasında əlaqə** | | **0.6** | |
| 1.1. | Təlimdən sonra mütəxəssisin fəaliyyət nəticələrində yaxşılaşma | 0.2 | |
| 1.2. | Təlimin əməkdaşın peşəkarlıq qabiliyyətlərinə təsiri | 0.2 | |
| | *a) fəaliyyət sahəsi üzrə nəzəri biliklər* | *0.15* | |
| | *b) fəaliyyət sahəsi üzrə praktiki biliklər* | *0.15* | |
| | *c) icra keyfiyyəti* | *0.2* | |
| | *d) icra intizamı* | *0.2* | |
| | *c) ünsiyyət qurma qabiliyyəti* | *0.1* | |
| | *d) komanda ilə işləmə qabiliyyəti* | *0.1* | |

| | | | |
|---|---|---|---|
| | *e) müstəqil öyrənmə qabiliyyəti* | *0.1* | |
| 1.3. | Təlim kursunda verilən biliklərin struktur vahidinin tələbatına uyğunluğu | 0.2 | |
| 1.4. | Kurs üçün dinləyicilərin seçilməsi üsulu sizi qane edirmi? | 0.1 | |
| 1.5. | Əməkdaşın kursun yekununda keçirilən imtahanda (monitorinqdə) göstərdiyi nəticə ilə praktiki fəaliyyət nəticələri arasında uyğunluğu | 0.2 | |
| 1.6 | Kursun əməkdaşın vəzifə təlimatları ilə müəyyən edilən tələblərə uyğunlaşmaları üçün faydalılığı | 0.1 | |
| **2. Təlimin struktur vahidinin fəaliyyət nəticələrinə təsiri** | | **0.4** | |
| 2.1. | Təlimin rəhbərlik etdiyiniz struktur vahidinin işinə təsiri | 0.6 | |
| 2.2. | Dinləyicinin vergi ödəyiciləri və həmkarları ilə qarşılıqlı münasibətlərinə təlimin təsiri | 0.4 | |
| **Təlimin və qiymətləndirmə anketinin təkmilləşdirilməsinə dair təkliflər** | | | |
| **Qeyd: "3" və daha aşağı ballar verildikdə səbəblər göstərilməlidir.** | | | |

Qiymətləndirmənin məqsədlərindən asılı olaraq fərqli sorğu anketlərindən istifadə oluna bilər.

### 4.3. Anketlərin nəticələrinin ümumiləşdirilməsi

Qiymətləndirmə aşağıdakı şkala üzrə aparılır:

5 – yüksək;

4 – yaxşı;

3 – orta;

2 – aşağı;

Anketin hər bölməsi üzrə ümumi qiymətləndirmənin aşağıdakı düsturla aparılması tövsiyə olunur:

$$K_j = \sum_{i=1}^{n} a_i * N_i^{or}$$

$K_i$ – anketin hər bir sual qrupu üzrə yekun göstəricisi

$a_i$ – hər meyarın qrupun yekun göstəricisində əhəmiyyətliliyini göstərən əmsal:

0< $a_i < 1$ və $\sum_{i=1}^{n} a_i = 1$

$N_i^{or}$– hər meyara verilən qiymətlərin orta göstəricisi.

$$N_i^{or} = \frac{\sum_j^r b_j}{R},$$

$r$ – respondentlər;

$R$ – respondentlərin sayı;

$b_j$ – $j$-ci respondentin $i$-ci meyara verdiyi bal.

Anket üzrə ümumi qiymət qrup göstəriciləri ($K_j$) ilə hər bir qrupun ümumi göstəricidə əhəmiyyətliliyini göstərən xüsusi çəki əmsalına hasilinin cəmi kimi hesablanır.

$$K_{um} = \sum_{j=1}^{n} a_j * K_j$$

Burada $a_j$ – anketin qrup göstəricisinin ümumi qiymətdə əhəmiyyətliliyi əmsalı, $n$ – anketdə qrup göstəricilərinin sayıdır.

$$\sum_{j=1}^{n} a_j = 1$$

**5. Anketlərin nəticələrinin istifadəsi**

Anketlərin yekun, qrup və vahid göstəricilər üzrə orta qiymətləri təlim prosesinin və onun ayrı-ayrı komponentlərin təhlili və təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi üçün istifadə olunur. Təlim prosesinin anketlərin ümumiləşdirilmiş nəticələri əsasında qiymətləndirilməsində aşağıdakı şkaladan istifadə olunması tövsiyə olunur:

$4.5 \le x \le 5$ – yüksək;

$4 \le x < 4,5$ – yaxşı;

$3.5 \le x < 4$ – qənaətbəxş;

$x < 3.5$ – aşağı;

Qiymətləndirmə nəticəsində yekun, qrup və vahid göstəricilər əsasında müəyyən edilmiş nöqsan və çatışmazlıqların səbəbləri araşdırılmalı, müəyyən edilmiş

nöqsanlar ümumiləşdirilməli və təlim prosesinin, o cümlədən təlimçilərin təlim qabiliyyətlərinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər hazırlanmalı və həyata keçirilməlidir.

Anketlərin doldurulması zamanı hər hansı suala və ya meyara “3” və daha aşağı bal verildiyi halda göstərilən səbəblər ümumiləşdirilməli, onların aradan qaldırılması üçün tədbirlər görülməlidir.

Dinləyicilərin təlimin sonunda biliklərin qiymətləndirilməsi zamanı göstərdikləri nəticələr üzrə qruplaşdırılması və bu qruplar üzrə müvafiq göstəricilərin müqayisəsi də təkmilləşdirmə üçün istiqamətlərin müəyyən edilməsində istifadə oluna bilər.

İl ərzində “yaxşı” və “yüksək” qiymətlər alan təlimçilər, eləcə də vergi orqanlarının təkmilləşdirici təkliflərin verilməsində fəallıq göstərən vəzifəli şəxsləri həvəsləndirilməyə təqdim edilə bilərlər.